Cümə, 10 yanvar 1919-cu il, nömrə 84

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 7 rəbiülaxir sənə 1337. 10 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan** [Parlament] **sədri həzrətlərinin əmrləri:**

Əmrnamə nömrə 36

Abdulla bəy Novruzbəyov, həmin 1334 sənəsi kanuni-əvvəlin [dekabrın] 24-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində xidmətkar (kuryer) təyin edilir.

Əmrnamə nömrə 37

Polina Yusibovna Qoldman, həmin 1918 sənəsi dekabrın 23-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində rus məzbətə mühərrirliyinə [protokol katibliyinə] təyin edilir.

Əmirnamə nömrə 38

Lidiya İosifovna Kozlovskaya, həmin 1918 sənəsi dekabrın 23-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində rus məzbətə mühərrirliyinə təyin edilir.

Əmrnamə nömrə 39

Leonid İvanoviç Şumski, həmin 1918 sənəsi dekabrın 23-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində rus məzbətə mühərrirliyinə təyin edilir.

Əmrnamə nömrə 40

Türküstan əhli Teymurxan Abbasi, həmin 1919 sənəsi yanvarın 2-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat [yazı, məktub] xidmətçisi təyin edilir.

Əmrnamə nömrə 41

Azərbaycan Məclisi-Məbusan İdarə xidmətkarı (kuryer) Möhsün Məşhədi Qafar oğlu, həmin 1919 sənəsi yanvarın 1-dən qulluqdan kənar edilir.

Əmrnamə nömrə 42

Azərbaycan Məclisi-Məbusan İdarəsinin məzbətə mühərriri Əbdül Əbdülzadə, həmin 1919 sənəsi yanvarın 1-dən qulluqdan əzl [kənar] olunur.

Əmrnamə nömrə 43

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat xidmətçisi İslam oğlu Süleyman Nuri, həmin 1919 sənəsi yanvarın 1-dən etibarən həman idarədə məzbətə mühərrirliyinə təyin edilir.

Əmrnamə nömrə 44

Zeynalabdin Gözəlzadə, həmin 1919 sənəsi yanvarın 1-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Əmrnamə nömrə 45

Azərbaycan Məclisi-Məbusan İdarəsində türk dili müdiri Əmir Ağazadə, həmin 1919 sənəsi yanvarın 4-dən etibarən 10 günlük məzuniyyətə buraxılır.

Əmrnamə nömrə 46

Azərbaycan Məclisi-Məbusan İdarəsinin kargüzarı Mirhüseyn oğlu Mirməcid, ərizəsinə mütabiq [uyğun olaraq] həmin 1919 sənəsi yanvarın 8-dən etibarən qulluqdan əzl olunur [kənarlaşdırılır].

*Məclisi-Məbusan rəisi naminə*
*Həsən bəy Ağayev*

## MÜSƏLMAN FƏHLƏLƏRİNƏ!

Fəhlə qardaşlar!

Neçə zamandan bəridir ki, şəhərdə hər bazar günü əmələ [fəhlə] konfransı toplanır. Bu konfranslar əmələlərin məvacibi, maaşı barəsində müzakirələr edir. Siz də lazımdır ki, orada hazır olasınız. Başqa əmələlərdən geri qalmayasınız.

Bu konfranslarda məvacib və maaş məsələlərindən başqa bəzi hökumət və siyasət məsələləri də qoyulur. Məsələn, təzədən “Raboçi deputat” [fəhlə deputatları] hökuməti qurmaq məsələsi, Azərbaycan Hökumətini tanıyıb-tanımamaq məsələsi kimi məsələlərə bu məclislərdə baxılır, onlar haqqında qərarlar çıxarılır. Lazımdır ki, bu konfranslara gələsiniz. Həm maaş, məvacib və güzəranınız haqqında fikirləşib dərdləşəsiniz, həm də yüksək səslə deyəsiniz ki, biz Azərbaycan milləti müstəqilik, hökumətimiz var və bütün demokratiyadan istəyəsiniz ki, necə siz bu vaxta qədər onlarla siyasi məsələlərdə bərabər getmiş, Rusiyanı islah üçün bərabər çalışmışsınız, qoy indi də onlar bizdən ayrılmayıb Azərbaycanı tanısınlar, Azərbaycana kömək edib nöqsanı varsa, birlikdə o nöqsanı düzəltməyə çalışalım.

Əmələ yoldaşlar, biz deməyiriz ki, siz qeyri-müsəlman yoldaşlarınızdan ayrılınız. Yalnız konfranslara gəliniz, orada gözüaçıq olunuz. Çox ikən az olmayınız. Qoy bəzi siyasət çevirən adamlar sizin adınızla, siz Azərbaycan əmələsinin etibarı ilə öz partiyalarının, öz politikalarının işlərini aparmasınlar. Qoy hər kəs hər yerdə görsün, eşitsin ki, Azərbaycan demokratiyası, Azərbaycan əmələsi də istiqlal tərəfdarıdır. Özü-özünə hakim olmaq istəyir, vəsi [əvəzedici] və qəyyuma ehtiyacı yoxdur.

Bunun üçün, yoldaşlar, fürsəti qaçırmayınız. Biliniz ki, bu gün vətənimizin asayişi, istiqlaliyyət və hürriyətimizin əlimizdə qalması, Azərbaycanımızın yaşaması sizdən asılıdır. Çünki siz millətin əksəriyyəti, çünki siz millətin ruhu və qüvvətisiniz. Qəflət etməyin. Hər əlli nəfərdən bir nümayəndə seçib mandatla bərabər üzümüzə gələn bazar günü şəhərə göndərin və diri bir qüvvə kimi qalxıb kəndi ehtiyaclarınızı müdafiə ilə bərabər deyiniz ki, Azərbaycan Parlamanından, Azərbaycan Hökumətindən

başqa bir hökumət bizə lazım deyildir. Ta ki, bu sayədə yaşasın Azərbaycan...

*Türk Ədəmi-Mərkəziyyət firqəsi*
*"Müsavat" Bakı firqəsinin*
*Təbliğat və təşviqat şöbəsi*

## SÜLH KONQRESİNƏ GEDƏN HEYƏTİ-MÜRƏXXƏSƏNİN [NÜMAYƏNDƏ HEYƏTİNİN] ƏZİMƏTİ [YOLA DÜŞMƏSİ]

Azərbaycan Parlamanı tərəfindən Yevropaya və Azərbaycan tərəfindən ümumi Sülh Konfransına göndərilən heyəti-mürəxxəsə caharşənbə [çərşənbə] günü saat 7-də dəmiryolu təriqi ilə [yoluyla] əzimət etdi. Heyət: dövlət müfəttişi "Müsavat" pişrovu [lideri] Məhəmməd Həsən Hacınski, Parlaman məbusu və məşhur camaat xadimi və mühərrir Əhməd bəy Ağayev, məşhur camaat xadimi Əlimərdan bəy Topşubaşov, Parlaman üzvü və sosialist "Hümmət" firqəsi rəisi Əkbər ağa Şeyxülislamov, qəzetəmizin müdir və baş mühərriri Ceyhun bəy Hacıbəyli, [Məhəmməd] Məhərrəmov (sosialist) və Miryaqub Mirmehdiyev ("İttihad") cənablarından ibarətdir.

Heyəti-mürəxxəsəni təşyi [yola salmaq] üçün, başda Fətəli xan Xoyski həzrətləri olmaq üzrə, ümum nazirlər, Məclisi-Məbusan əzasının [üzvlərinin] bir çoxu, xüsusən fraksiya və firqə rəisləri və bir çox sair həzərat mövqifə [dəmiryolu stansiyasına] getmişlərdi. İstasyona fəxri qaraqol dəstəsi qonulmuşdu. Heyət yola düşmədən əvvəl "Müsavat" firqəsi rəisi Rəsulzadə Məhəmməd Əmin bəy cənabları müxtəsər bir nitq irad edərək [söyləyərək] Yevropaya gedən məşhur, çalışqan rəislərimizə vəzifələri haqqında bir söz söyləməyi artıq hesab edib də ancaq vəkillərimizin millət hüzuruna istiqlal təmini kimi mübarək bəşarətlə [muştuluqla] ağ üz, açıq alınla qayıdacaqlarına əmin olduğunu bildirir.

Bə'd [sonra] Sosialistlər İttifaqı namından [adından] Əhməd Cövdət cənabları bir nitq deyərək, Azərbaycan demokratiyası [xalqı] tərəfindən bütün Yevropa və cahan demokratiyasına salam yetirmələrini və dünya füqərayi-kasibəsindən [proletariatından] bizə amal və arzumuzun hüsulu [hasil olması] bəşarəti gətirmələrini arzu edir.

Heyəti-mürəxxəsə tərəfindən Ağaoğlu Əhməd bəy həzrətləri cavabi nitq irad edərək, bu gün vətəndə gördüyü hallar, hərəkətlərin heyəti-mürəxəsə öhdəsinə düşən ağır vəzifənin hüsn-ifasına və istiqlala layiq olan bir millətin istiqlaliyyətini təmin edə biləcəklərinə olan iman və etiqadlarını bir daha qüvvələndirdiyini və binaənileyh [buna görə] heyət[in] var qüvvəsi ilə millətin arzusuna nail olmağa çalışacağını, bu yolda da müvəffəq olacaqlarına inandığını bəyan edir.

Sürəkli "Ura" sədası içində qatar yola düşür.

*X. İ.*

## SÜLHİ-ÜMUMİ YOLUNDA

Bəşəriyyət həyati-ictimaiyə keçirdiyi dövrdən bəri tarixini qanlı izlərlə ləkələməyə aludə olmuşdur. Hər zaman bir

məsələnin həlli bir az geciksə, dərhal qılıncın zərbəsi o məsələni, nə qədər layənhəll [həlledilməz] bir məsələ də olsa, İskəndəranə [İskəndər kimi] həll edir. Lakin tarixə bir kərə nəzər edilsə, bütün əsrlərdə əfkari-ümumiyyə [ictimai rəy] müharibənin, qan tökmənin əksində olduğu görünür. Hətta müharibə edənlər kəndiləri belə qovğa və cidalın əbəs olduğunu hər an etiraf edə gəlirlər. Fəqət tərəqqi və təkamülün son dərəcəyə vardığına, fəlsəfeyi-hazirənin bir çox qaranlıq məsaili [məsələləri] aydınlaşdırdığına baxmayaraq, bu vaxta qədər müharibə üsulunu başqa, bəşəriyyətə yaraşan bir vasitə ilə dəyişmənin yolu tapılmamışdır. Bu yolda çoxlar çalışmışlar, beyinlərini yormuşlar. "Ümumi bir cahan cümhuriyyəti" yaxud "cahan mütləqiyyəti" yapmaq kimi həqiqətdən uzaq xəyallarda olanlar da olmuşdur. Məsələnin həyata tətbiqində isə yenə qılınclar qınlarından çıxmış, yenə insan qanı hədər yerə axmağa başlamışdır. Müharibəni mövcib olan [şərtləndirən] məsələləri sülhcu [sülhpərvər] bir mühakimə ilə həll etmək xülyası bir çox mütəfəkkirlər tərəfindən tərvic edilmişsə [üstün tutulmuş, önə çıxarılmışsa] də, bunları başlıca iki qismə ayırmaq olar ki, bəziləri sülhi-ümumi üçün müsavat və ədaləti-tammə [mütləq ədalət] əsasları üzərində qurulmuş nəzəriyyələr təklif edirlər; bəziləri də müharibəni əbədiyyən qaldırmaq üçün bütün dünyanı bir hakimi-mütləqin təhti-idarəsinə [hakimiyyəti altına] tabe etməklə beynəddüvəl [dövlətlərarası] müharibələrin bitməsinə qaildirlər [inanırlar].

On yeddinci əsrin axırlarında Fransa dövləti qayət qüvvətləşdiyi üçün qonşu millətlər qorxuya düşüb onun əleyhinə İngiltərə, Germaniya imperatorluğu, Prussiya və Portəgiz [Portuqaliya] dövlətlərindən ibarət bir ittifaq təşkil etdilər. Müharibə nəticəsində Fransa zəif düşüb Utrext Sülh Konfransının qoyduğu şərtlərə boyun əyməli idi. 1713 sənəsində ittifaq düşən bu konfransa Sen-Pyer adlı bir keşiş tərəfindən bir əbədi sülh projesi [layihəsi] təqdim edildi. Bu layihəyə görə, ümum Avropa dövlətləri, qədim Germaniya imperatorluğu səbkində *[tərzində]* bir ittifaq qurmalı idilər ki, bu dövlətlərin mütəsavi [bərabər, bir-birinə tay] nümayəndələrindən ibarət ümumi Məclisi-Məbusan [Parlament] həm qüvveyi-təşriiyyəyə *[qanunverici hakimiyyətə]*, ədliyyəyə [məhkəmə hakimiyyətinə] malik olacaq, həm də qoyduğu qanunları cəbrən [zorla] yürüdəcəkdi. Sen-Pyerin projesi keçmədi. Çünki, ümumi Məclisi-Məbusan demək, millətlərin şəxsi hüququnu məhdud etmək demək idi və onun qoyduğu qanunları icbari olduğu üçün millətlərin istiqlalına zərər yetirəcəyi də şübhəsizdi. Məşhur fransız ədibi Jan-Jak Russo da bu fikrin tərəfdarlarından ədd [hesab] olunur. Dördüncü Henrix müharibələrə bir xitam [son] vermək üçün ümumi bir xristian cümhuriyyəti binasının tərəfdarı idi. Daha bir çox mütəffəkirlər, siyasilər yüzlərlə layihələr yapmaq, ümum dövlətləri bir şuraya tabe etmək kimi xülyaların arxasınca qoşur, nəticədə yenə məsələ qan və dəmirlə həll olunurdu. Bütün dünyanı bir mütləqiyyətə tabe etmək və böyləliklə müharibələrə xitam vermək fikrinin Qərbdə mürəvvicləri [bu fikri inkişaf etdirənlər] Beşinci Karl, On dördüncü Lui, Napolyon,

papalardan bir neçəsi göstərilə bilər. Şərqdə isə cahangirlik siyasəti bir çox İran şahlarının əsası olduğu kimi, Osmanlılarda da Səlimi-əvvəl [I Səlim] kimi:

*"Əlində məş'əleyi-mənəviyyeyi-töv-hid*
*Edərdi Şərq ilə Qərbi ziyasına dəvət" (Ə. H.)*

beytinə masədəq [mütabiq, uyğun] olanlar vardır. Hələ bütün aləmi-islamda əsrlərcə icrayi-nüfuz edən və indi də etməkdə olan ittihadi-islam [islam birliyi] fikri belə buna bir məsəl göstərilə bilər.

Müharibələrə xitam vermək üsulunun projeləri pək çoxdur. Son dövrdə qəbul edilmiş üsul isə "siyasi müvazinə [tarazlıq]" üsulu idi. Bütün Avropa, bəlkə bütün cahan bir tərəzi şəklində təsəvvür olunaraq, onun kasələrinin bir tərzdə qalması üçün diplomatlar əllərindən gəldiyi qədər səy edirlərdi. Təcrübədə isə bu tərəzinin şaxəsi [qolu] Balkan dağlarından və boğazlardan ibarət idi. Tərəzinin bir kasəsi o biri kasəyə rəğmən bir az yuxarıda olması lazım gələrsə, dərhal Balkan şaxəsinə müraciət olunurdu. Bu müvazinə tərəzisinin başında isə düvəli-müəzzəmə [böyük dövlətlər] əyləşmişdi. Lakin sonra məlum oldu ki, "siyasi müvazinə" üsulu ilə əbədiyyən müharibələrin önünü almaq qabil deyil və əgər olsa belə, yenə bu sülh saxta bir şey olub min dürlü ədalətsizliklərin vüquuna [ortaya çıxmasına] səbəbiyyət verir. Odur ki, yenə qılınclara sarıldıq, yenə beyinlərin həll edəmmədiyini dəmirlər həll etməyə məcbur oldu.

Tam beş sənə vurduq, yıxdıq, indi yenə bıqdıq, yenə məsələləri sülhlə, kompromislər, güzəştlərlə həll etmənin növbəsi gəldi. Bu dəfə meydanda Sen-Pyerin əbədi sülh projesi deyil, prezident Vilsonun "Cəmiyyəti-əqvam" [Millətlər Cəmiyyəti] projesi və 14 fəslidir. Bu projenin qabaqkılara nisbətən bir təfavütü var ki, qabaqkılar "cahan müharibəsini" görmədikləri üçün "cahan sülhünü" də yapammadılar. Nəsli-hazır [indiki nəsil] isə ümumi müharibənin bütün dəhşət və fəlakətini görüb, həqiqi ehtiyacların nə olduğunu düşündüyü üçün onun qoyacağı, daha doğrusu yaradacağı "ümumi sülh" də daimülhəyat olacağına [əbədi yaşayacağına] ümid edəlim.

Cəmiyyəti-əqvam, ittifaqi-miləl [millətlər ittifaqı] bəşəriyyətin yeni doğurduğu bir idealdır. Bu idealın qarşısında hər sinif, hər təbəqə, hər millət səcdə edir və gələcəyini ondan bəkləyir. Ümid edəlim ki, bu fikir yalnız proje halında qalmayıb, yaxın bir istiqbalda [gələcəkdə] təcəssüm edəcək və həyatını ondan bəkləyən millətlərin məsuniyyəti-siyasiyyələrini [siyasi toxunulmazlıqlarını], istiqlallarını təmin etməklə bərabər müharibəni, qan tökməni insanların xatirindən belə çıxaracaqdır.

*Əli Yusif*

**İdarədən:** Doğrudur; amma hələlik: "Hazır ol cəngə, əgər istər isən sülhü-səlah!"

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### Yeddinci iclas

Caharşənbə [çərşənbə] günü kanunisaninin [yanvarın] 8-də Azərbaycan Məclisi-Məbusanının iclası təyin edilmişdi.

İclas saat 2-dən 20 dəqiqə işləmiş doktor Ağayev həzrətlərinin sədarəti ilə açılır. Katib Əhməd Cövdət cənablarıdır.

Diplomatlar lojasında Dağıstanlılar Cümhuriyyətinin Azərbaycan nümayəndəsi və Dağıstan Hökuməti nazirlərindən müsafirətən [qonaq olaraq] şəhərimizdə bulunan İbrahim bəy Heydərov həzrətləri və qeyriləri əyləşmişlərdir.

Rəisi-vükəla [Baş nazir] Fətəli Xan Xoyski həzrətləri başda olmaq üzrə nazirlər dəxi ümumiyyətlə isbati-vücud [iştirak] edirlər. Tamaşaçılar üçün təyin edilmiş yerlər doludur. Xanımlar üçün ayrılmış lojalar dəxi tamaşaçı xanımlarla dolu idilər.

Doktor Ağayev iclası açaraq ruznameyi-müzakiratı [müzakirə gündəliyini] elan edir.

Növbədəki məsələlər:

1 - Varid olan [gələn, daxil olan] teleqraflar və kağızlar;

2 - İki məbusun ərzihalı [ərizəsi] ;

3 - Etibarnamə komissiyasının məruzəsi;

4 - İrəvan quberniyası müsəlmanlarının əhvalı haqqında bir ərzihal;

5 - Əfvi-ümumi [amnistiya] haqqında qanun layihəsi;

6 - Fəhlələr məsələsi haqqında Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Məsai [Əmək] nazirinə xitabən istizahı [sorğusu];

7 - Lənkəran və Muğan məsələsi haqqında Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Hökumətə xitabən istizahı;

8 - Hacıqabul mövqifindəki [stansiyasındakı] hadisə xəbəri münasibətilə Parlamanın Sosialistlər fraksiyonu tərəfindən Hökumətə xitabən verilmiş istizah.

Sonra Ermənistan Cümhuriyyəti və Erməni Milli Şurası tərəfindən və Ağdamdan alınmış teleqraflar oxunur.

Azərbaycan Məclisi-Məbusanı açılan zaman ümum parlamanlara və əzcümlə [o cümlədən] Ermənistan Parlamanına çəkmiş olduğu teleqrafa şimdi Ermənistan Milli Şurası tərəfindən böylə cavab alınmışdır:

*"Azərbaycan Məclisi-Məbusanı sədri həzrətlərinin hüzuri-alilərinə.*

*Azərbaycan Cümhuriyyət idarəsi, vilayətin hakimi olan Məclisi-Məbusanın təhti-idarəsinə [idarəsi altına] keçməsi münasibətilə Ermənistan Milli Şurası səmimi-qəlbdən şad və məsrur [sevincli] olmuşdur.*

*Parlamanın güşadını [açılışını] zati-aliləri tərəfindən çəkilib də yanvarın birində bizə vüsul olmuş [çatmış] teleqrafdan öyrəndik. Əsrlərdən bəri iki həmsayə [qonşu] arasındakı dostluğu bir feyzi-ziqiymət [dəyərli bir nemət] ədd [hesab] edərək Ermənistan Milli Şurası həmin dostluğun davam və bəqası [əbədiliyi] məsləkini təqib edəcək və iki dost hökumətin dövləti mənafeyini birləşdirmək üçün daha müəssir [təsirli] vəsilələr aramaqda qüsur göstərməyərək bunları yekdigərilə yaxlaşdıracaqdır [bir-birinə yaxınlaşdıracaqdır].*

*Ermənistan Şurayi-Millisi rəisi Saakyan”*

Bədəhu [sonra] Ağdamdan alınmış zeyldə [aşağıda] yazılan təbrik teleqrafı oxunur:

*“Azərbaycan Məclisi-Məbusanı sədri həzrətlərinə.*

*Əziz vətənimiz Azərbaycan[ın] təşəkkülünün böylə mühüm və müşkül bir*

*dövründə biz Ağdam mahalının nümayəndələri; müstəqil Azərbaycanımızın mənafeyini və onun Parlamanını müdafiə və mühafizə üçün səmimi-qəlblə hazır olduğumuzu öz Parlamanımıza izhar etməklə [bildirməklə] bərabər, əmin oluruz ki, ən yaxın bir zamanda Məclisi-Müəssisan dəvəti ilə müstəqil yaşamağımız üçün demokratik əsaslar həmişəlik bərpa olacaq; hər şeydən ziyadə, daxildə asayiş və əmniyyət üçün və xaricdən olan təərrüzlərin [hücumların] dəfi üçün əsgəri bir qüvvə lazım olduğundan, həmin qüvvənin əcələ ilə [təcili] təşkil tapmasını arzu ediriz.*

*İldırım xan, Hidayət, Həmid, Muxtar, Zeynal və başqaları..."*

Bu teleqraflardan sonra Cavanşir qəzası məbusu doktor Cəmil bəy Lənbəranski və Salyan məbusu Baxış bəy Rüstəmbəyov cənabları tərəfindən verilmiş ərzihallara baxılır. Bu məbuslar 10 gün məzuniyyət istəyirlər.

Sosialistlər fraksiyası tərəfindən [Əliheydər] Qarayev təklif edir ki, məbuslardan bir çoxu məzuniyyətə gedib, bəziləri də Hökumət və Parlaman tərəfindən Yevropaya və sair işlərə göndərilmiş olduqlarından, müvəqqət olaraq heç kəsə məzuniyyət verilməsin və məzkur [adı keçən] iki məbusun ərzihalı qəbul edilməsin.

Səsə qonulduqda əksəriyyəti-ara [səs çoxluğu] ilə bu təklif qəbula keçir.

Bədəhu [sonra] Etibarnamə komissiyası tərəfindən **Rüstəmbəyli Şəfi bəy** məruzə verərək bəyan edir ki, komissiyaya yenidən bir neçə qanun üzərinə tərtib verilmiş etibarnamə varid olmuşdur ki, onların qəbul və təsdiq edilməsini Parlamana təklif edir. Bu cümlədən olmaq üzrə Cavanşir qəzasından seçilmiş doktor Cəmil bəy Lənbəranski, Qubadan seçilmiş Əli bəy Zizikski, Rus Milli Şurası tərəfindən seçilmiş 5 məbusun etibarnaməsi Şurayi-Milli qanununa müvafiqdir.

Əlavə, Salyandan iki məbus seçilmişdir: Rəşid bəy Axundzadə və Baxış bəy Rüstəmbəyov. Bunlardan birisini qəza Milli Şurası, digərini Bələdiyyə İdarəsi intixab etməli idi. Halbuki, ikisi də Milli Şura tərəfindən seçilmişdir. Ona görə, etibarnamə komissiyası Baxış bəy məsələsini açıq buraxaraq, qəzadan seçilmiş olan Rəşid bəy Axundzadənin təsdiqini təklif edir. Bir də Şamaxı əhalisindən bir ərzihal varid olaraq Bələdiyyə İdarəsinə bir məbus seçmək üçün izin verilməsini istida [xahiş] edirlər. Bu istida, Şurayi-Milli qanununa ziddir. Zira, Milli Şura Parlaman qanunu verən zaman, Şamaxı şəhərinin xüsusi şərait altında bulunduğunu nəzərə alaraq məbus intixabını [seçkisini] ancaq Milli Şuraya mühəvvəl etmişdir [tapşırmışdır]. Binaənileyh [ona görə], Etibarnamə komissiyası şamaxılıların istidasını qəbul etməyəcəkdir.

Bundan maəda [başqa], Şəki qəzası müsəlmanları və yəhudilər Parlamana ərzihal verərək, məbuslarının miqdarının artırılmasını və Azərbaycanda sükunət edən [yaşayan] ukraynalılar Məclisi-Məbusanda kəndilərinə iki yer verilməsini istida etmişlərdir. Ukraynalıların ərzihalı Milli Şura tərəfindən deyil, konsul tərəfindən verilmiş olduğundan, rəsmi cəhətdən qeyri-məqbul ədd olunaraq rəsmiyyət ifasınadək məsələ açıq buraxılır. Şəki müsəlmanları ilə yəhudilərin

istidası isə rədd edilir. Çünki, əvvəla Parlamanımız çalışmalıdır və çalışır ki, ən yaxın bir zamanda Məclisi-Müəssisan çağırılsın. Digər tərəfdən də Şurayi-Milli qanununa görə Parlaman məbuslarının miqdarı 120 olmalıdır. Şimdi bunların ərzihalına əməl edildikdə və böylə olarsa gələcəkdə sair əyalətlərdən də böylə istidalar varid olacağı nəzərə alındıqda, anlaşılır ki, biz Şurayi-Milli qanununun miqdar haqqındakı maddəsini tez-tez dəyişməli olacağız. Bu isə mümkün və məmul [arzuedilən] deyildir.

**Qara bəy Qarabəyli** Bakı qəzası tərəfindən verilən istidanın cavabını sorur [soruşur].

**[Şəfi bəy] Rüstəmbəyli** cavab verir ki, bu dəxi ümumi məsələdən olduğundan, üzvlərin miqdarı qanununa görə qəbul ediləmməz. Lazım gələrsə, bunu Məclisi-Məbusan ancaq qanun təriqi [yolu] ilə keçirə bilər.

**Qarabəyli Qara bəy** müxtəsər bir nitq irad edərək [söyləyərək] deyir ki, əlbəttə Parlaman əzasının 120 olması bir qanundur və biz də bu qanunun xilafına iş görmək istəməriz, fəqət 24 para kənddən ibarət və 84.000 nüfusa malik olub da heç bir intixabatda [seçkidə] iştirak etməmiş olan əhalinin ixtiyarı var özünə yer tələb etsin. Bakı qəzası, sairləri kimi nümayəndəsinin çoxa[l]dılmasını deyil, ancaq yer verilməsini istəyir. Zənnimcə Məclisi-Məbusan bu məsələdə Bakı qəzasının xahişini nəzərə alaraq, qanundan müstəsna olmaq üzrə qəzaya istədiyi yeri verə bilər. Mən "İttihad" firqəsi tərəfindən təklif edirəm ki, Parlaman onlara yer versin. Bilxassə ki, onlar məbuslarını seçmişlərdir də. Nümayəndələri hazırdır.

Bundan sonra da bir neçə natiq danışaraq istidalara əməl olunmasını istəyirlər. Əzcümlə [o cümlədən] Abdulla bəy Əfəndiyev Şəki müsəlmanlarının istidasını müdafiə edir və Əhməd Cövdət həm mandat komitəsi məruzəsində bəzi anlaşılmaz cəhətlər olduğunu və sabiq natiqləri tənqid edir. Çox mübahisədən sonra qərar verilir ki, Etibarnamə komissiyasının təklif etdiyi etibarnamələr təsdiq və açıq buraxılan məsələlər isə fraksiyalarda danışılmaq üzrə gələn iclasda qəti surətdə həll edilsin.

Növbətdə İrəvan müsəlmanları nümayəndələrinin ərzihalıdır. Sədrin təklifi üzərinə katib ərzihalı oxuyur:

*“Azərbaycan Parlamanı rəisinin hüzuruna İrəvan quberniyası müsəlmanlarının zeyldə [aşağıda] imzaları mündəric [dərc edilmiş] nümayəndələrindən ərzihal*

*1917 sənəsi dekabrdan 1918 sənəsi iyuna qədər İrəvan quberniyası dairəsində erməni qoşunları tərəfindən iki yüzdən ziyadə müsəlman kəndləri atəşə tutulub və tarmar olub, bunların əhalisi isə qismən qətl, qismən də dağlara qaçıb buralarda soyuq və aclıqdan tələf olmuşlar.*

*İrəvan quberniyasının müsəlmanlarla tamamən məskun qəzaları, ki ibarət ola bütün Sürməlidən, İrəvan, Eçmiyədzin, Şərur və Naxçıvan qəzalarının bəzi hissələrindən, Osmanlı ordusu tərəfindən işğal olduqdan sonra burasında yaşayan ermənilər yeni təşkil olunmuş erməni cümhuriyyətinin dairəsinə hicrət etmişlər [köçmüşlər]. Digər tərəfdən, Osmanlılar[ın] işğal etdikləri mahallara da yüz minə qədər müsəlman, İrəvan*

*quberniyasının başqa yerlərindən köçmüşlər. Bunları da hicrətə, həştaddan ziyadə müsəlman kəndlərini atəşə tutub talan edən ermənilər məcbur etmişlər. Bu minval ilə burasında sırf müsəlmanlarla məskun, 500 min əhalini havi [əhatə edən] bir mahal törəmiş, müstəqil bir hala düşdükdən sonra bu müsəlmanlar burada kəndilərinə bir hökumət təşkil etməyə də müvəffəq olmuşlarsa da, kəndilərini həmişə Azərbaycanın ayrılmaz bir parçasıədd [hesab] edilməklə bərabər və bunu ancaq arzu edirlər ki, gələcəkləri və taleləri Ümum Sülh Konfransında həll oluncaya qədər təhti-asayişdə [asayiş altında] yaşamalarına mane olmasınlar.*

*Əlyövm [bu gün] erməni qoşunları Sürməli qəzasını tamamən, İrəvan, Şərur və Eçmiyədzin qəzalarının müsəlmanlarla məskun mahallarını işğal edib, Naxçıvan tərəfə yürüş etməkdədirlər. Yürüşlə də bərabər yerli müsəlmanları qismən kəsib, qismən köylərindən çıxarıb İrana hicrət etmək məcburiyyətinə salırlar. Böylə sui rəftardan müsəlmanların tamamən tələf və məhv olması şübhə xaricində müsəddəq [qəti, təsdiqlənmiş] bir şeydir. Məcburiyyətlə müsəlmanlardan təmizlənmiş mahallara Osmanlı Ermənistanından fərar etmiş erməniləri köçürürlər.*

*İrəvan quberniyasının bəzi mahallarının tamamən müsəlmanlarla məskun olduğu və bu mahalların tarixi və başqa şərait üzrə Azərbaycanın ayrılmaz bir hissəsiədd olunmasını nəzərə alıb və məcburiyyətlə bu mahalları müsəlmanlardan təmizləyib onların yerinə erməni mühacirlərini oturtmağı xilafi-vicdan və qanun* [qanun və vicdana zidd] *hesab edərək, bu mahallar məsələsinin qəti surətdə həllini Sülh Konfransına buraxaraq, biz imzaları zeyldə mündəric İrəvan müsəlmanları nümayəndələri Cənabi-Rəis zati-alilərinizdən İrəvan müsəlmanlarının mövcudiyyətinin mühafizəsi üçün lazım gələn tədabiri ittixaz etmənizi [tədbirləri görmənizi] rica ediriz.*

*4 yanvar 1919*
*İmzalar:*
*Parlaman üzvü: Teymur bəy Makinski;*
*Parlaman üzvü: M[əhəmməd] Məhərrəmov;*
*Parlaman üzvü: Əkbər ağa Şeyxülislamov;*
*Rəşid bəy İsmayılov, A[bbasəli] Makinski, Yusif bəy Tahirov, [Əziz bəy] Sultanov, Paşa bəy [Bayrambəyov]."*

**Vinoqradov**, millətlərin bu surətlə yekdigərinə düşmən kəsilərək biri-birinə bu qədər zülüm və əziyyət etmələri münasibətilə bəyani-təəssüf və ermənilərin bu hərəkəti müqabilinə protesto edir.

*(bitmədi)*

## TƏƏSSÜRAT

Parlamanımızın keçən günkü iclasından hasil etdiyim təəssürat, keçənlərdəki kimi zövq aldığım xoş təəssüratımın yerini verə bilmədi.

Parlaman mənə:

– Keşiş həmişə kətə yeməz!

dedirtdi.

Qərəz, hissiyyati-milliyyəm tətmin edilmədi. Qəlbimdə bir acılıq qaldı. Bir kəlmə: sındım!

. . . . . . . . . . . . . . . . . . . . . . . . .

Rusca danışmalı imiş!

“Raboçi klub”da [Fəhlə Klubunda] rus fəhlələri müsəlman natiqlərindən rusca danışmağı tələb edirmişlər. Parlamanda dəxi hər dəm bunu tələb edənlər olmayır deyil, fəqət tələb edənlər ruslar deyildir.

“Rusca, rusca!” - deyə hər dəm yerlərindən əmr verən məbus əfəndilərimizi mən başa düşürəm. İstəyirlər ki, qeyri-müsəlman məbuslarımız haqqında əvvəla adi “nəzakət” rəsmiyyəti icra edilsin və saniyən [ikincisi] danışılan məsələlərdən, təklif olunan qərarlardan onlar da müxbir [xəbərdar] olub işə iştirak etsinlər.

Buna heç bir sözümüz yox! Hələlik bu dilə möhtacıq və istemalına [istifadəsinə] da məcburuq. Lakin rusca danışılmasın, rusca ancaq tərcümə edilsin. Baxüsus [xüsusilə] Lənkəran, Muğan, İrəvan, Qarabağ və sair erməni məzaliminə [zülmünə] məruz qalan yerlərdən alınan kağızlar, sənədlər hər dəfə mütləq rus dilinə tərcümə edilib qeyri-müsəlman məbuslarımız üçün oxunsun! Lakin adi söhbətimizi, baxüsus məbuslarla rəis əfəndi arasında və ya məbuslarımızın öz aralarında təati edilən [qarşılıqlı deyilən] sözləri rusca söyləməyə heç bir ehtiyac yoxdur.

– Позвольте мнѣ два слова!

– Вы о чемъ?

– Я на счетъ заявленія члена...

Bunun kimi mükaliməni [söhbəti] Parlamanda rusca keçirtməyə nə hacət? Bir halda ki, danışan da türkdür, danışdırılan da!

. . . . . . . . . . . . . . . . . . . . . . . . .

İrəvan hadisatı [hadisələri] xüsusunda hökumətə “zapros” [sorğu] verildi.

(Mən də rusca danışmağa başladım, lakin qərəzsiz degildir. Bu “zapros” sözü, Parlamanımızda ümumiyyət etibarilə “istizah” və “izahat” kimi başqa mənaları ifadə edən ərəbcə kəlmələrlə tərcümə edilir. Dünən məbusumuz və bu gün vəzirimiz [nazirimiz] olan sosialist Səfikürdski cənablarından bu “zapros” sözünün “sorğu” sözü ilə ifadəsini dəfələrlə eşitmişəm və çox da xoşuma gəlibdir. Məbuslarımızın da xoşuna gəlsəydi, bu sözü qəbul edərdik. Zatən bu sözü Səfikürdski cənabları özündən çıxartmayıbdır. Dilimizin mənbeyi-sərvəti [sərvət mənbəyi] olan və rus dili qələbəsindən bir dərəcəyə qədər kənarda qalan kəndlərimizdə yazıçılarımızdan bir çoxunun – zənn edirəm səhv və xəta olaraq – “soq-sual” surətində yazdığı “sorğu-sual” sözü vardır. Bu söz, kəndlilərimiz ağzında çox işlənir:

– Məhəmmədhəsəni tutub sorğu-sualsız dama saldılar.

Zənn edirəm, bu “sorğu” sözünü “zapros” yerinə Səfikürdski ilə bərabər hamımız dəxi işlətsək, uduzmarıq ki, udarıq. Türkiyə Məclisi-Məbusanında “zapros” sözünə “təqrir” denildiyi qəzetələrdən anlaşılmaqdadır.)

Xülasə, İrəvan hadisatı xüsusunda Hökumətə sorğu verildi. Sorğu verən əfəndinin ifadatında [ifadələrində], həm də o tərəfin zavallı müsəlmanlarından gəlmiş istimdad [yardım] fəryadı ilə dolu olan məktublarında İrəvan hadisatiəliməsi [acı hadisələri] təsvir olunurdu.

Bu təzə xəbərləri dinləyən Parlaman əzalarında [üzvlərindən] nə bir təəssürat, nə bir ruh incikliyi, nə bir yas, nə bir kədər, nə bir nifrət, nə bir etiraz əlaməti

müşahidə edilmədi!

Danışılan ruhsuz sözlərdən də çıxan nəticə bu oldu ki:

– İngilislərə müraciət edəlim...

Genə ingilislərə!

Günü bir gün bu ingilislərin bizə qaya ağırlığında bir söz deyəcəyindən mən çox qorxuram!

Müntəziri və arzusunda olduğumuz qızğın bir nitqi əvəzində beş-on kəlmə "xala-xətrin qalmasın"la bizi qənaətləndirmək istəmiş olan Məhəmməd Əmin Rəsulzadə cənabları istisna olmaq üzrə, firqə "lider"lərimizin bir qardaş fəlakəti xüsusunda ixtiyari-sükut etmələri [susmaları] bizcə anlaşılmaz bir sətr [sirr], açılmaz bir müəmma hökmündə qaldı...

İrəvan, Lənkəran, Qarabağ və bu kimi hadisələr haqqındakı məsələlər nə "firqəvi" məsələdir ki, deyək o firqə tərəfindən verilən sorğuya bu firqənin dəxli yoxdur, nə bir "diplomatik" məsələdir ki, bunun üçün "pişəzvəqt" [qabaqcadan] evdə hazırlaşmaq lazım gəlsin. Bədbəxt qardaşlarımızın daşnaklar təhəkkümü və təzəllümü [zülmü] altında taqətfərsa [dözülməz] fəlakətlər çəkdiyindən mütəəssir olub da acınmaq, yanmaq, qızmaq [hirslənmək] və əhvali-ruhiyyələrini münasib sözlə ifadə etmək və bu işə Hökumətimizin də, camaatımızın da, müttəfiqlərimizin də, rusların da, yəhudilərin də, hər insaf və insaniyyət sahibinin diqqətini cəlb etmək çətin bir əmrmi [işmi] idi?!

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Əfvi-ümumi [amnistiya] məsələsi araya gəldi.

Parlamanımızın birinci iclasında "İttihad" firqəsi tərəfindən irad edilmiş olan bu məsələ, bu səfər həll olundu. Əfvi-ümumi, daha doğrusu, siyasi mücrimlərin [cinayətkarların] əfv edilmələri xüsusunda Hökumət tərəfindən tərtib edilmiş qanun layihəsi Parlamanca qəbula keçdi.

Sonradan bu məsələni qurdalayıb da vəziri [naziri] bir taqım lüzumsuz bəyanata məcbur etmək yersiz idi. Zira, vəzir Səfikürdski cənabları siyasi mücrimlərin kimdən ibarət olduğunu öylə bir şəkildə bəyan etdi ki, siyasi mücrim ilə adi caninin təfavütünü seçmək çətin oldu.

Səfikürdski cənabları bunu unutmasın ki, Hökumətə qarşı silahla qiyam etmənin, bomba və dinamit gizlətmənin, meşə qırmağın nə dərəcədə siyasi cürüm və nə dərəcədə adi bir cinayət olduğunu əhalimiz içində başa düşməyənlər hələ çoxdur.

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Sosialistlərdən sağ və fəhlə məsələsində də onlardan bir az uzaq olan "Müsavat" firqəsinin sosialist vəzirə fəhlələr məişətinin çətinliyi haqqında sorğu verməsi məzəli bir keyfiyyət idi.

Bu xüsusda "Müsavat"çılar ilə sosialistlərimiz arasında bir bala "atışma" vaqe olduysa da, nəticəsi "salamatlıqla" keçdi. Müsavatçı [Abbasqulu] Kazımzadənin fəhlə həyatının üsrəti [çətinliyi] haqqındakı qızğın nitqinə cavab verən Məsai vəziri sosialist Səfikürdski cənabları özünü sındırmadı, dedi:

"Sizə fəhlə məişəti haqqında öylə həqiqətlər söylərəm ki, "başınızın tükü ayağa (?) durar!"

Filvaqe [doğrudan], Səfirkürdski cənabları bu surət xüsusunda nitq irad edərkən öylə sözlər söylədi ki, özgələri

bilmirəm, amma mənim başımın tükü ayağa durdu. Məsələn, fəhlələr həyatının, ümumiyyətlə, hər bir yerdə, ağır bir surətdə keçməsini nəql ilə sözünü bolşevik fəhlələri məişətinə ətf edərək [yönəldərək] dedi ki, bolşevik fəhlələr hamıdan yaxşı dolanırlar. Və bu sözü mənidar bir surətdə [mənalı, xüsusilə vurğulayaraq] təkrar etdi.

- Bolşevik fəhlələr yaxşı dolanırlar.

- Bizim fəhlələrə də yaxşı dolanmaq lazımdır.

Erqo! (Ona görə) yaxşı dolanmaq üçün:

- Bolşevik olmaq lazım gəlir!

Elmi-məntiqdə [məntiq elmində] böylə çıxır. Təcrübədə də feilən böylə çıxarsa, onda nəinki bir mənim, bəlkə bir çoxlarının başının tükü ayağa durar!

Hər halda "Müsavat"çıların fəhlələrimiz haqqındakı ciddiyyətlə çarpışması fəhlə ehtiyacatının, fəhlə təşkilatlarının dalınca olmaları son dərəcə şayani-sürur və təsəlli [sevindirici və təsəlli edici] bir fəaliyyətdir.

Gəldi Lənkəran faciəsi məsələsi.

Lənkəran məbusu Hacı Mirzə Səlim Axundzadə cənabları ürəyinin dərdini, vətəninin ağlar halını, Lənkəran müsəlmanlarının biganələr [yadlar] əlindən çəkdigi zülüm və sitəmi Parlaman əzalarının hüzurunda açıb deməyə axır ki, fürsət tapdı.

Hacı Mirzə Səlim cənabları nitqinin "müqəddəməsinin müqəddəməsini" böylə başladı:

*Nalera hərçənd mixahəm ke pünhan bekonəm*

*Sinə miquyəd ke, mən be təng amədəm, fəryad kon.*

Bundan əlavə məbus əfəndi nitqini ərəb şeirlərilə dəxi təzyin edir [bəzəyir]. Böylə ki:

*Və kullu yədəmun visalə Leyli*
*Va Leyli lə tuqarru ləhum bizakə.*
*İzə əthət dumu min uyun*
*Təbəyyən mən büka əv mən təbakə.*

Sonra Lənkəran müsəlmanlarının rus "demokrat"ları əlindən çəkdiyi əza və cəfaları yanıqlı bir dil ilə söyləməyə başladı. "Lənkəranlılara azadlıq və kömək lazımdır" deyə hər kəsi köməyə dəvət edərkən, "ruznamələri" [qəzetləri] dəxi bu köməyə cəlb arzusuyla "Qəzetə yalnız bir firqənin naşiri [təbliğatçısı] olmayıb da bitərəfanə surətdə hər kəsə danışmaq imkanı verməlidir" dedi. Məbus əfəndinin bu işarə və kinayəsi hansı "ruznaməyə" aid olduğunu bir dürlü anlamadıq.

Əlbəttə, bizim qəzetəyə ola bilməz! Çünki, qəzetəmizin firqə və partiya xaricində rəsmi bir "orqan" olduğu hər kəscə məlumdur. Hər günkü möhtəviyyatından məlum olduğu üzrə vətən abadlığı, millət salamatlığı, camaat tərəqqisi, dövlət intizamı ilə bərabər, istiqlal və genə də istiqlal şüarlarını virdi-zəban [dilinin əzbəri] edib də, bunun hüsulunda əlindən gələn qədər çalışmaqda olan qəzetəmiz bu dairədə yazılmaqda olan məqalələrə sütunlarını – bir ananın balasına qarşı açdığı qucağı kimi – kamali-meyl və məhəbbətlə açıbdır, vəssalam!

Əlqərəz, Hacı Mirzə Səlim əfəndi Lənkəran faciəsindən bir şəmmə [cüzi bir hissə] açıb nəql elədi.

Bu dilsuz [ürək yandıran, təsirli] həqiqətləri dəxi Parlaman əzalarımız İrəvan

hadisəsi kimi hissiyati-milliyyədən ari [milli duyğulardan uzaq], qeydsiz [laqeyd] bir tərzlə qarşıladılar: genə nə bir nitq, nə bir hərəkət...

Mən güman edirdim ki, bu gün havanın soyuqluğu Parlaman əzalarımıza o dərəcədə əsərbəxş olubdır [təsir edibdir] ki, bu soyuqluq deyil yalnız bir bədənlərinə, bəlkə ruhlarına da keçibdir. Ona görə bugünkü iclas, axırına kimi “soyuq” keçəcəkdir. Lakin cavan və fəal məbuslarımızdan Əhməd Cövdət əfəndinin bir saatlıq əsl “parlamani” bir nitqi gümanımı səhvə mübəddəl etdi [çevirdi]. Çünki, natiq əfəndinin istər nitqində, istər bədənində, istər ruhunda “üşümək” əsəri yox idi. Biləks [əksinə], qızğınlıq var idi.

Əhməd Cövdət əfəndinin bu hərarətli nitqi nəyə dair idi? Nəyi və kimi bu hərarət və səlasətlə [səlisliklə] müdafiə edirdi?

Stansiyalarda soyulmuş bir nəfər Sarkisyanı və dəmiryol mövqiflərinin [stansiyalarının] birində guya öldürülmüş olan üç nəfər ermənini!

Qışın bu soyuq günlərində buzlu dağlara pənah aparmış, Araz çayının qara sellərinə qurban olmuş, yer və yurdlarından, mülk və mallarından, can və başlarından top və pulemyot gülləläri zoru ilə məhrum edilmiş, əsir və yesir günündə dağlara, daşlara, dərələrə, təpələrə səpilmiş olan, məzlum və məzlumlardan da məzlum olan bədbəxt qardaşlarımızın, ana və bacılarımızın müdafiəsi haqqında bir söz belə dilinə almağı özünə “layiq” görməmiş olan məbus əfəndimizin, daşnaklar mənbəyindən xüsusi bir qərəzlə nəşət edən [meydana gələn] yalan və acı bir yalan olduğu Rəisi-vüzəra Fətəli xanın bəyanatından bəlli olan xəbərlər haqqında kamali-səlasətlə hərraflıq [boşboğazlıq] etməyi mənə o qədər əlim bir təəssür [kədərli bir hiss] və yanıqlı bir acıq verdi ki, nitqi axırınadək dinləmək taqətim qalmadı...

Türk ürəkli və sosialist fikirli Əhməd Çövdət əfəndinin fəal və çalışqan bir zat olduğu məlumumuzdur. Və hər kəsə bilafərqi-millət [millət fərqi qoymadan], insaniyyət nəzəri ilə baxmaq fikrinin aliliyinə də mötərifik [aliliyini qəbul edirik]. Lakin iki nəfər insandan, iki nəfər adəm övladından birinin məzlum və məfluk [bədbəxt] olduğunu dünya işığına baxan gözümüz və aləmi-batinisini [daxili aləmini] də dərk edən bəsirətmizlə gördüyümüz halda və o birinin də məzluma nisbətən qeyri-məzlum bir vəziyyətində bulunduğunu dərk etdiyimiz təqdirdə, məzlumu qoyub da qeyri-məzlum haqqında çalışmağımız, insaniyyət fikrinə mütabiq və elmi-məntiqə müvafiq olmadığı surətdə, böylə eyləməyin mənası nədir, əcəba?

*Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Fransa xəsarətinin ödənilməsi**

Fransaya dava xəsarətinin verilməsi barəsində olan Fransanın nöqteyi-nəzəri böylədir: Birinci növbətdə Fransanın zərərləri əda edilməlidir [ödənməlidir]. Zira, Fransa baş meydani-hərb olduğundan onun təxribatı da çox olmuşdur.

**Poznanın işğalı**

Berlindən çəkilən teleqramda Poznanın lehlər [polyaklar] tərəfindən işğal edildiyi işar [qeyd] olunur. Lehlər Almaniya milli nişangahlarını [rəmzlərini] yıxıb, almanların evlərində təftiş etmişlərdir. Qızğın müharibədən sonra bütün milli fondu öz əllərinə keçirmişlərdir. Lehlər bir intibahnamə [bəyannamə] buraxaraq Poznanın Polşaya ilhaqını [birləşdirilməsini] elam [elan] etmişlərdir.

**Bolşeviklərlə mübarizə**

Rus mənbəyindən "Royter" ajansına verilən teleqraf xəbərlərinə nəzərən, bolşevikləri yıxmaq üçün görülən hazırlıq, müvəffəqiyyətli surətdə irəliləyir. Bu yaxınlarda iki böyük bolşevik əleyhinə olan qüvvələrin ümumi mübarizədən ötrü birləşəcəyinə ümid yoxdur.

**Sülh şərtlərinin müzakirəsi**

Parisdə zənn edilir ki, yanvarın 13-də Xariciyyə Nəzarətində İngiltərə, Fransa, İtaliya və Amerika nümayəndələrinin sülh şəraiti [şərtləri] əsasları barəsində müzakirələri olacaqdır və bu sülh şəraiti düşmənlərə təklif ediləcəkdir. Müttəfiq dövlətlər nümayəndələri Parisdə ikinci Sülh Konfransında iştirak edəcəklər. Şərait qəti surətdə tərtib edilib, sonra Versal Sülh Konfransında düşmənlərə veriləcəkdir.

* İstanbuldan gəlmiş olan şəxslər xəbər verirlər: Bu şərq cəbhəsində olan Müttəfiq qoşunlarının baş komandanlığına təyin edilmiş Fransa generalı D'Esperi bu günlərdə İstanbula varid olmuşdur [gəlmişdir]. Bu yaxınlarda mümaileyh [adı keçən şəxs] Sevastapola əzimət edəcəkdir [gedəcəkdir].

* Dənizlər məsələsində Vilson Fransa və İngiltərəyə güzəştdə bulunur. Digər tərəfdən isə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsində Müttəfiqlər Vilsona güzəşt edirlər. Burası sülh əqdini [müqaviləsini] tezləşdirir.

**Gələcəkdə donanma**

Vaşinqtondan verilən teleqrafa nəzərən, Daniels hərbi komitəyə xəbər vermişdir ki, bundan sonra hərbi paraxodların əksəri elektrik qüvvəsi ilə hərəkət edəcəklərdir. "Yeni Meksika" nam drednot birinci olaraq elektriklə hərəkət edəcəkdir. Bu paraxod, dünyada ən birinci böyük paraxoddur ki, 31 min at gücü vardır.

* Yunanıstan sədrəzəmi [Baş naziri] Venizelos Xariciyyə vəzirinin müşayiəti ilə Parisə konqreyə əzimət eyləmişdir [yola düşmüşdür].

* Paris və Roma qəzetələri tələb edirlər ki, imperator Vilhem, Napolyon kimi Sant Helen cəzirəsinə [adasına] göndərilsin. Bəzi İstanbul qəzetələri isə Vilhemin güllələnməsini tələb edirlərmiş.

* Türklər istiqbala [gələcəyə] çox nikbinliklə baxırlar. Onlar ümüd edirlər ki, Batum, Qars, Ərdahan və Ərəbistan özlərinin əlində qalacaqdır. Türklərin rəyinə görə, Ermənistana Türkiyə daxilində olmaq üzrə muxtariyyət veriləcəkdir.

**QƏZETƏLƏRDƏN**

**Gürcüstan istiqlaliyyəti**

Londondan Gürcüstan nümayəndələri təzə bir teleqraf göndərmişlərdir.

Teleqrafda deyilir ki:

*"Parisə göndərilmiş olan nümayəndələrin adlarını və onların nə vaxt Parisə varid olacaqlarını [çatacaqlarını], həmçinin Gürcüstan haqqındakı təzə xəbərləri bizə məlum ediniz. Burada bizim müzakiratımız [müzakirələrimiz] davam edir. Gürcüstan xeyrinə təzə və'dələr almağa müvəffəq olduq.*

*Gürcüstan nümayəndələri: Avalişvili, Qambaşidze."*

**İngiltərə qatarları**

Yanvarın 3-də İngiltərə generalı Vulk başda olmaq üzrə İngiltərə heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Batumdan Tiflisə varid olmuşdur. Samtredi ilə Tiflis arasında iki qatar dəxi vardır. Digər bir qatar Samtredidən Potiyə azim olmuşdur.

**Böyük ianə**

Məşhur tacirlərdən Xoştariya və Rus-İran neft şirkəti Gürcüstan müharibəsi nəfinə [xeyrinə] 550.000 rublə ianə vermişlərdir.

**Tabut içrə pulemyotlar**

Gürcü Parlamanı üzvü A. Axmetelaşvilinin oğlu dəmiryol kənarında erməni seminariyası yanından keçdikdə dörd nəfər hammalın [hambalın] bir tabut aparmasını görmüşdür. Hammallar həman yerdə tabutu yerə qoymuşlardır. Tabut yerə qoyulduğu zaman tabutdan gələn şübhəli səs uşağın diqqətini cəlb etmişdir. Hammallardan tabutda nə olduğunu xəbər aldıqda, hammallar tabutu götürüb cəbbəxanaya (arsenala) tərəf getməyə tələsmişlərdir. Məzkur [deyilən] uşaq cəbbəxanaya tərəf qaçıb saldatlara xəbər eyləmişdir. Saldatlar hammalları tabutla bir yerdə tutmuşlar. Tabut içrə meyit əvəzində pulemyot və patron var imiş.

**Bolşeviklərin hücumu**

Qomeldən xəbər verirlər ki, bolşeviklərin şəhəri zəbt etmək təşəbbüsatı bərtərəf edilmişdir. Bolşeviklər şəhərin bir neçə məhəlləsini zəbt edib, bu yaxınlarda dəvət edilmiş olan Qomel Demokratik Dumasını qovmuşlarsa da, alman əsgərləri Kiyevdən düsturüləməl [göstəriş] alıb polkovnik Xarçenkonun ultimatum təklifindən sonra bolşeviklər əleyhinə çıxmışlardır. Bir neçə saatdan sonra alman əsgərləri bolşevikləri şəhərdən çıxarıb bir çoxlarını əsir etmişlərdir.

**Şimali Qafqazda bolşeviklərin məğlubiyyəti**

Şimali Qafqaziyada bolşeviklər böyük məğlubiyyətə düçar olmuşlardır. Müttəfiq ordu və kazaklar, bolşeviklərin 60 mindən ibarət olan qüvvələrini sındırıb, onların yarısından ziyadəsini [çoxunu] əsir almışlardır. Bolşeviklərdən 12 zirehli avtomobil, 17 top, 128 pulemyot, bir neçə min tüfəng və bir milyon güllə və sairə qənimət almışlardır. Bolşeviklərin komandanı dəxi əsir düşmüş. Məğlub olmuş bolşevik ordusu həyəcanla qaçaraq Müttəfiqlər tərəfindən təqib olunmaqdadır.

**Bolşeviklər Bakı haqqında**

Bakının müqəddəratı bolşevikləri artıq həyəcana salır. Şura cələsələrində [iclaslarında] Lenin demişdir ki, Bakı, Müt-

təfiq ordular tərəfindən işğal edilmişdir. Onun Rusiyaya, yəni bolşeviklərə qaytarılmasına ümid yoxdur. Bu isə neft cəhətindən Rusiyanı çox müşkülata uğradır.

**Hindistan bolşevikləri**

Hindistan bolşeviklərinin nümayəndələri Mərkəzi İcraiyyə Komitəsini təbrik üçün Moskvaya gəlmişlərdir. Nümayəndələr demişlər ki, 70 milyon Hindistan əhalisi bolşevizm ruhu ilə ruhlanıb, İngiltərə imperializmi ilə mübarizə etməkdən ötrü Şura Hökuməti ilə birləşmək arzusundadırlar.

## BAKI XƏBƏRLƏRİ

**Cavad uyezdində Bakı üçün taxıl almaq**

Ərzaq Nəzarəti tərəfindən Cavad uyezdinə taxıl almaq üçün göndərilmiş nümayəndə Kalantadze bu günlərdə Bakıya gəlib, özünün Cavad uyezdində taxıl almaq barəsində gördüyü işləri xüsusunda layihəsini Nəzarətə təqdim etmişdir.

Məlum olur ki, Cavad uyezdində külli miqdarda taxıl almaq ümidi, bir o qədər də həqiqətə müvafiq deyildir. Bu uyezdin özündə taxıl bir o qədər yoxdursa da, lakin bu uyezd vasitəsi ilə Lənkərandan taxıl və sair məhsulatı daşıyıb çəkmək mümkünatdandır. Nümunə üçün Salyanda Kalantadze bir qədər taxıl alıbdır. Görünür ki, əhali bundan qabaqkı hökumətlərin əsrlərində [dövründə] gördükləri zülüm və haqsızlıqların qorxusundan öz var-yox taxılını quyularda gizlədib və heç vəchlə alış-verişə gələn nümayəndələrə inanmaq istəməyirlər.

Cavad uyezdindən külli miqdarda ancaq çəltik almaq mümkün olacaqdır. Lakin bu çəltiyin də qiyməti hələlikdə oralarda çox yuxarıdır. Çünki Bakıya ingilislər tərəfindən külli miqdarda İrandan gətirilən və hal-hazırda da gətirilməkdə olan düyü, Bakı bazarında düyünün və çəltiyin qiymətini çox aşağı salmışdır. Bu səbəbdən də nümayəndə hələlik orada çəltik almaqdan çəkinir.

Nəzarətin qərarına görə, Cavad uyezdində taxıl alış-verişi qismən mal mübadiləsi ilə olacaqdır. Bu səbəbdən də skladlardan çit, bez və sair əşya hazırlanıb Salyana göndəriləcəkdir.

Kalantadze bu günlərdə genə Salyana yola düşəcəkdir.

**Odun məsələsi**

Bakı Ərzaq şöbəsi, Quba uyezdində Yalama mövqifində [stansiyasında] Bakı üçün külli miqdarda odun hazırlamışdır ki, yavaş-yavaş bu odunları Bakıya daşıtdırsın.

Dünən Yalamada olan nümayəndədən teleqraf gəldi ki, guya Kislovodskdan gəlmiş alıcılar buraya gəlib şiddətlə odun aparmaq istəyirlər və hətta məhəlli [yerli] polis nəfəratı [nəfərləri] da onlara kömək edirlər. Bu alıcılar Kislovodsk şəhəri idarəsi ilə müqavilənaməsini göstərib güclülük edirlər. Ona görə də Ərzaq şöbəsinin vəkili xahiş edir ki, Yalama naçalniki adına qubernatordan bir hökmnamə alınıb göndərilsin.

Qubernator cənabı isə ümum uyezd naçalnikləri adına bir sirkulyar göndərib hər bir yerdə Ərzaq Nəzarəti nümayən-

dələrinə kömək edilməsi təklif olunmuşdur.

* Balaxanı, Sabunçu qalabəyisi [komendantı] qubernatora müraciətlə təklif edir ki, Neftçilər syezdi keçən illər kimi qalabəyi məmurlarının olduqları mənzil üçün işıq və odun verməyə məcbur edilsin. Daxiliyyə vəzirinin binagüzarlığına [sərəncamına] görə fövqdəki [yuxarıdakı] şeylər üçün 219 min manat pul buraxılması Sovet Syezdə təklif edilmişdir.

* Neftçilərin axırıncı ümumi iclaslarında mart və sentyabr hadisələrindən sonra Bakıdan getmiş olan müsəlman və erməni əmələlərinin [fəhlələrinin] məvaciblərinin verilməsi məsələsi müsbət bir surətdə həll edilmişdir.

**Mal tapılmışdır**

Nəzirulla Rəsul oğlu bizdən təvəqqe edir xəbər verək ki, srağagün gecə saat 8 radələrində Balaxanıda bir hammal [hambal] omuzunda bir qədər baqqaliyyə malı olaraq bəzi xırsızlar [oğrular] tərəfindən "mal bizimdir" deyə aparıldığını görərək, həman adamları tanıdığından, məzkur [deyilən] malın onların olmasından şübhələnib, malı əllərindən alıb yuxarı məhəllə məscidi yanındakı baqqal dükanına aparmışdır. Mal sahibi gəlib şeylərini həman dükandan apara bilər.

**"Əlvahi-intibah"**

Dəyərli şairimiz Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndi tərəfindən qələmə alınmış olan "İnsanların tarixi faciəsi yaxud əlvahi-intibah" nam [adlı] mənzum əsərin 3-cü cildi təbdən [çapdan] çıxıb satışa qonulmuşdur. Qareə və qarelərimizə [qadın və kişi oxucularımıza] bu əsəri oxumağı tövsiyə ediriz.

## TEATRO VƏ MUSİQİ

Bu gün, cümə günü Hökumət teatrında Hacıbəyli Qardaşlarının müdiriyyəti artistləri tərəfindən Üzeyir bəy Hacıbəylinin məşhur "Arşın mal alan" operettası mövqeyi tamaşaya qoyulacaqdır. Oyunun həmişəki kimi gözəl bir surətdə çıxacağına müdiriyyət tərəfindən lazımi diqqət verilibdir. Dirijor Üzeyir bəyin özüdür. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır.

**Elan**

"Açıq söz" qəzetəsinin mətbəə və idarəsi mart hadisələri əsnasında yandırıldığından, "Açıq söz" kolleksiyonları dəxi tələf olmuşdur. Məzkur [adı keçən] qəzetənin baş mühərriri Rəsulzadə Məhəmməd Əmin bununla elan edir ki, kimdə məzkur qəzetənin kolleksiyonu varsa və satmaq istərsə ya "Azərbaycan" idarəsinə və yaxud 55-10 nömrəli telefonla kəndilərinə bildirsin.

**Mehmanxaneyi-"Məhəmmədiyyə"**

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

*Kamali-ehtiramla İbrahimov*

**Kömür**

Satılır Karantinni və Sisyanovski küçələrin küncündə Kərimovun 20 nömrəli mülkündə Hacı Məhəmmədin dükanında putu 25 rublə. Çox alanlara güzəşt edilir.

*2641*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91.

Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62.

**Türk təqvimi**
**Yeni və əski üsul ilə türk təqvimi**

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır. Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

*b-38* *10-7*

**Təqvimi-islam [müsəlman təqvimi]**
**Türkcə-rusca divar təqvimi**

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur. Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında "Novruz" mətbəəsi.

*2637* *3-2*

**Təbliğat və təşkilat**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" Bakı və ətrafında Balaxanı, Binəqədi, Ramana, Zabrat, Sabunçu, Suraxanı, Bibiheybət, Çornı-qorod, Fabrika və qeyri bu kimi mədən dairələrində çalışmaqda olan müsavatçı və qeyri-müsavatçı müsəlman fəhlə qardaşlardan rica edir ki, üzümüzə gələn bazar günü şəhərin "Raboçi klub"unda vaqe olacaq fəhlə konfransına hər 50 nəfərdən bir nümayəndə seçib etibarnaməsi ilə şəhərə göndərsinlər. Konfransda mühüm məsələlər həll olunacaqdır.

*T/6*

***Müdir və baş mühərrir:***
***Ceyhun bəy Hacıbəyli***

## QEYD VƏ ŞƏRHLƏR

**"Azərbaycan"**

səh. 159. Qəzetin nömrəsi 1-ci səhifədə "74", digərlərində "84" getmişdir.

**Azərbaycan Məclisi-Məbusan sədrinin əmrləri**

səh. 159. "...1334 sənəsi kanuni-əvvəlin 24-dən...": Burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 24 yanvar 1919-cu ilə uyğundur. "1334" yerinə qəzetdə səhvən 1324 getmişdir.

"Əmrnamə nömrə 38": qəzetdə səhvən "Əmrnamə nömrə 37" kimi getmişdir.

**Sülh Konqresinə gedən...**

səh. 161. "X. İ.": bu imza Xəlil İbrahimə (İbrahimov Xəlil) məxsusdur.

**Sülhi-ümumi yolunda**

səh. 162. "...İskəndəranə həll edir": açılması demək olar ki, mümkünsüz hesab olunan Qordi düyününü Makedoniyalı İskəndərin qılıncla kəsib atması hadisəsinə işarə edilir. Bu hadisə, çətin və yorucu bir problemin qılınc gücünə qısa yoldan həll edilməsinə misal olaraq göstərilir.

"...qədim Germaniya imperatorluğu...": Müqəddəs Roma German imperiyası nəzərdə tutulur.

"Dördüncü Henrix": 1589-1610-cu illərdə hakimiyyətdə olan Fransa kralı IV Henrix nəzərdə tutulur.

"Beşinci Karl": 1519-1556-cı illərdə Müqəddəs Roma İmperiyasının imperatoru olan V Karl nəzərdə tutulur.

"On dördüncü Lui": 1643-1715-ci illərdə Fransa kralı olan XIV Lüdovik nəzərdə tutulur.

səh. 163. "Əlində məş'əleyi-mənəviyyeyi-tövhid / Edərdi Şərq ilə Qərbi ziyasına dəvət": "Əlində tövhidin mənəvi məşəli; Şərq ilə Qərbi işığına dəvət edirdi." Beyt, Türk şairi Əbdülhaq Hamidin Osmanlı sultanı I Səlimə həsr etdiyi "Qəbri-Səlimi-əvvəli ziyarət" adlı şeirindəndir.

"Ə. H.": Türk şairi Əbdülhaq Hamid (Tarhan) nəzərdə tutulur.

"Hazır ol cəngə, əgər istər isən sülhü-səlah!": "Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan."

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 167. "...Osmanlı Ermənistanından fərar etmiş erməniləri...": qəzetdə "fərar" yerinə "zar" getmişdir.

"Ə[ziz bəy] Sultanov": qəzetdə adı səhvən "əlif" hərfi ilə göstərilmişdir; "ayn" olmalıdır.

**Təəssürat**

səh. 168. "– Позвольте мнѣ два слова! / – Вы о чемъ? / – Я на счетъ заявленія члена...": "– İcazə verin iki kəlmə deyim! / – Nə barədə? / – Deputatın bəyanatı barəsində..." (rusca)

səh. 170. "Erqo!": "deməli, elədirsə, ona görə" (latınca). Fransız filosofu Rene Dekartın fəlsəfəsinin əsasını təşkil edən məşhur "Düşünürəm, deməli varam" (Cogito, ergo sum) prinsipində işlənmişdir. Ü. Hacıbəyli mötərizə içindəki (ona görə) sözləri ilə "erqo"nun izahını vermişdir.

"Nalera...": Farsca. Mənası:

"Naləmi gizli saxlamaq istəsəm də, / Sinə deyir ki, mən darıxdım, çığır!"

"Və kullu...": Ərəbcə. Mənası:

"Hər kəs Leylinin vüsala qovuşmağını istəyir, / Leyli isə bununla razılaşmır. / Əgər gözlərdən yaş axırsa, / Bu ya kiminsə ağlamasına, ya da kiminsə özünü ağlamağa vurmasına dəlalət edir."

**Teleqraf xəbərləri**

səh. 172. "Drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

"...Xariciyyə vəzirinin...": o dövrdə Yunanıstanın Xarici İşlər naziri Aleksandros Diomidis olmuşdur.

"...imperator Vilhelm...": Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 173. "A. Axmetelaşvili": "Svimon Axmetelaşvili" olmalıdır.

**Bakı xəbərləri**

səh. 175. "Neftçilər syezdi": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.